# VIII. SİYASİ-ƏDƏBİ PORTRETLƏR

## 1. Güzgüdən görünən həqiqətlər

***Yalanlar çoxalanda adamlar həmişə həqiqətə, doğru söyləyənlərə tərəf boylanır. Bu, dünyanın hər yerində, o cümlədən, Azərbaycanda da belədir.***

**Qulu MƏHƏRRƏMLİ**

Professor Qulu Məhərrəmlinin publisistik yaradıcılığından danışarkən burada portret yazıların ayrıca yerini qeyd etmək lazım gəlir. Təkcə təhlil etdiyimiz kitablarda deyil, ölkənin aparıcı qəzet və jurnallarında da onun ciddi maraq doğuran portret yazıları çap edilir. Həmin yazılar mövzu və mahiyyət etibarilə özündə müəllifin milli düşüncəsini, onun fəlsəfi-estetik dünyagörüşünü, mənəvi orientirlərini və həyat ideallarını parlaq şəkildə əks etdirir.

Bu portret yazılarda millət yaddaşının ən dərin qatlarına nüfuz edilir, milli düşüncə tarixində yeni iz açmış Mirzə Fətəlidən, milli mətbuatın və teatrın əsasını qoymuş Həsən bər Zərdabidən, onun məsləkdaşı və zülməti yaranların ön sırasında dayanmış Əsgərağa Goranidən bəhs edilir. Qulu Məhərrəmli şüurlarda türkçülük düşüncəsini alovlandırmış Əli bəy Hüseynzadədən yazır, millət fədaisi olan böyük mütəfəkkir Əhməd bəy Ağaoğlunu yada salır, millətin mənəvi sütunlarından sayılan Üzeyir Hacıbəyovu bizlərə fərqli rakursda tanıdır, Azərbaycan Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə haqqında kitab yazır.

Qulu Məhərrəmlinin parlaq publisistikasında müasirlərimizin portretləri önəmli yer tutur. Və həmin portretlər silsiləsi olduqca rəngarəngdir. Bu silsilədə siyasi xadimlərdən tutmuş elm adamlarına, Qarabağ savaşının qəhrəmanlarından tutmuş sıravi insanlaradək çox cəlbedici obrazlar qalereyası ilə rastlaşırıq.

Kimlərdən yazıb?Alimlər: dilçi-alim, prof. Müseyib Məmmədov, prof. Tofiq Rüstəmov, Ziya Bünyadov, Şirməmməd Hüseynov, prof. Rafiq Əliyev, ak. Nizami Cəfərov və s.Yazıçı və şairlər: Famil Mehdi, Musa Yaqub, Ramiz Rövşən, Əlisa Nicat, Sabir Əhmədli,Vaqif Bəhmənli və s.TV, radio-kino adamları: Aydın Qaradağlı, Yusif Muxtarov, TV rejissorları-Vasif Babayev, Əhməd Abdullayev, Əhməd Xaspoladov, Məryəm Zöhrabova və s.Sənət adamları: Qədir Rüstəmov, Yaqub Məmmədov, Fuad Poladov, Həsən Məmmədov və b.Jurnalistlər: Çingiz Mustafayev, Elmar Hüseynov, İsa Axundov (x.müxbir radio), Yalçın Əlizadə, Ələkbər Abbasov və b.Qarabağ döyüşçüləri: Mübariz İbrahimov, Qüdrət İsmayılov, Surxay Nocuyev (Milli Qəhrəman).

Əlbəttə, bütün bunlar son deyil. Yəqin ki, gələcəkdə Qulu Məhərrəmlinin fədakar tədqiqatçıları ayrı-ayrı mətbu orqanların - qəzet-jurnalların səhifələrinə səpələnmiş can yanğılı yazılarını arayıb-axtaracaq, hələ özünün də bir araya gətirmədiyi bu tipli yazıları cildlərə cəmləşdirəcəklər.

Qulu Məhərrəmlinin ədəbi-bədii portretlər silsiləsindən olan yazılarının bir çox cəhətdən xüsusi dəyəri var.

Birincisi, Qulu Məhərrəmlinin haqqında yazdığı görkəmli simalar milli sərvətimizdir. Tariximizdə xüsusi xidmətləri olan şəxsiyyətlərdir və onların Qulu Məhərrəmli kimi xüsusi yanaşması olan yazarların qələmi ilə görünən obrazları onların həqiqi kimliklərinə işıq salır. Bir daha bu simaların Qulu Məhərrəmli qələmi ilə çəkilmiş portretlərini görmək qəlbimizi nə qədər nurlandırırsa, ruhumuzu da bir o qədər zənginləşdirir. İnsan, şəxsiyyət, xarakter, obraz sarıdan milli sərvət zənginliyimizi dərk edirik.

İkincisi, Qulu Məhərrəmlinin orijinal yanaşması ilə yaradılmış portret əsərlər az qala günün qalmaqalları fonunda unudulmaqda olan obrazlara diqqəti yönəldir. Bu portret yazılarla elinə yenicə qələm götürmüş istedadlı gənclərə təlqin olunur ki, əvvəlcə babanı, atanı, müasirini yaxşı tanı və tanımağınla inan ki, bu günkü cəmiyyətin qurulmasında onların necə böyük xidmətləri var.

Üçüncüsü, müəllif yanaşması sarıdan da bu yazıların dəyəri əvəzsizdir. Çünki bir çox hallarda Qulu Məhərrəmlinin müraciət etdiyi obrazların bəziləri zamanında basqılara məruz qalıb, hələ də bir çox insanlar onların adlarını öz ünvanlarına uyğun çəkməkdə tərəddüd edirlər. Qulu Məhərrəmlinin ədəbi-siyasi portret yazıları insanlara obyektiv münasibət təlqin edir. Hər bir insanı dövrünün fonunda qiymətləndirmək, onun örtülü tərəflərini üzə çıxarmaq, cəmiyyət üçün faydalı tərəflərinə daha gur işıq salmaq... bu Qulu Məhərrəmlinin ədəbi-siyasi portretlərini işləyərkən əsas tutduğu meyarlardır.

Professor Qulu Məhərrəmlinin ədəbi-siyasi portretlər silsiləsindən olan yazıları sırasında Azərbaycan mütəfəkkirlərinin çox böyük yeri var. Ən düzgünü də budur ki, etiraf edək. Milli-tarixi şəxsiyyətlər haqqında Qulu Məhərrəmlinin yazıları ayrıca kitab halında cəmləşməlidir və bu kitabın Azərbaycanın mənəvi mühiti üçün dəyəri heç bir maddiyyatla ölçüyə gəlməz.

* * *

*“Həqiqətin bahalaşan qiyməti”* (06.07.2013) yazısında *“Azadlıq”* və *“Amerikanın səsi”* radiostansiyalarının sovet məkanında siyasi sistemin dağılması yolunda təsir gücündən bəhs edir. Amma bizim üçün diqqəti çəkən bir məqam var, bu da Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin epiqrafı üçün seçilmiş fikridir: *“Demokratiya bir hakim olaraq sovet və kommunist imperializmin ölümə məhkum etmişdir”*. Burada diqqəti çəkən bir məqam var. İkinci Cahan savaşından 75 ildən də çox vaxt keçməsinə baxmayaraq bu gün də həmin müharibə ilə bağlı bir çox olaylar mübahisəli olaraq qalır.

Birmənalı şəkildə faşizm qəbul olunan deyil, ancaq sovet ordusu sıralarına səfərbərliyə alınmış açıq fikirli bir çox insanlar var idi ki, onlar, ümumiyyətlə, Sovet imperiyasını qəbul etmirdilər və bunun dağılması üçün hələ müharibədən əvvəl səylər göstərirdilər. Şübhəsiz ki, onlardan biri də Düdənginski idi. Doğrudur, müəllif Qulu Məhərrəmli *“Həqiqətin bahalaşan qiyməti”* adlı publisistik qeydlərində əsas obraz kimi *“Azadlıq”* radiostansiyasını götürsə də, Düdənginskidən epiqrafı da təsadüfi vermir.

Onu da deyək ki, sovet siyasi sisteminin dağılması dövrü bizdən hələ çox uzaqlaşmayıb. Elə bu səbəbdən də şahidi olduğumuz olaylar gözümüzün önünə gələndə *“Azadlıq”* və *“Amerikanın səsi”* radiostansiyalarının stereotiplərdən xilas olmağımız naminə xidmətləri haqqında düşünməli oluruq: *“50-ci illərdə ABŞ Senatı federal büdcədən maliyyə ayırdıqdan sonra yayıma başlayan iki radiostansiya - “Azad Avropa” (1950) və “Azadlıq” (1953) radioları sovet işğalı altında olan respublikalarda insanlara öz ana dillərində fərqli xəbər almaq, həqiqəti bilmək imkanı yaradırdı. Var gücü ilə işləyən radiolar arasında konkret vəzifə bölgüsü var idi: “Azad Avropa” daha çox Şərqi Avropanın sosialist ölkələrini, “Azadlıq” isə (ilk vaxtlar “Qurtuluş” adlanırdı) SSRİ-ni hədəfə almış, onun bütün respublikalarının dillərində verilişlər yayımlamağa başlamışdı. Getdikcə qol-qanad açan bu stansiyaların dünyanın azı 100 ölkəsində 240 məlumat mərkəzi, 200-dən çox kitabxanası yaradıldı. Təkcə SSRİ xalqlarının 23 dilində həftədə 2 min saatdan çox veriliş hazırlanırdı. Əməkdaşların sayı qısa müddətdə 350-dən 1500-ə çatdırılmışdı”*. Maraqlı məlumatlardır, oxucuya çatmağını istərdim. Ancaq təkcə məlumatlar maraqlı olduğuna görə yox, həm də bu informasiyanın özündə Azərbaycan siyasi mühacirlərinin portret obrazını ehtiva etdiyi üçün oxucuya çatmağını istədim. Ən başlıcası, həmin dövrün müharibədən sonrakı mərhələdə ən müxtəlif səbəblərdən Avropada qalmış azərbaycanlıların siyasi mübarizə həyatını anlamaq baxımından da bu məlumatlar çox dəyərlidir.

Tarix həmin şəxslərə - xarici radiostansiyalar ətrafında birləşib sovet ideologiyası əleyhinə mübarizə aparan mübarizlərə çoxdan bəraət verib. Nə qədər mübahisəli tərəflər olsa da, indi artıq həmin şəxslərin jurnalistik fəaliyyətinin cəmini, eləcə də indi legioner ədəbiyyatı kimi öyrənilən ədəbi materialları da dana bilmərik, bunları da yaradan azərbaycanlılar idi və bütöv bu toplumun ümumi obrazı kimi mən Qulu Məhərrəmlinin *“Həqiqətin bahalaşan qiyməti”* yazısını eyni zamanda Ceyhun bəy Hacıbəyli və Əbdürrəhman Fətəlibəyli - Düdənginski obrazlarının portreti hesab edirəm, elə bu səbəbdən də bu qeydlərə xüsusi münasibət bildirməyi vacib hesab etdim.

Düşüncələrimi əsaslandırmaq üçün bir daha Qulu Məhərrəmlinin öz qeydlərinə istinad edirəm: *“1953-cü ilin martından “Azadlıq”ın Azərbaycan redaksiyası da fəaliyyətə başlamış, bu redaksiyanın ilk baş redaktoru Əbürrəhman Fətəlibəyli - Düdənginski və Ceyhun Hacıbəylinin səyləri sayəsində Azərbaycanın siyasi mühacirləri üçün əsl tribunaya çevrilmişdi. Vətəndə “xain” adlanan bu adamlar Azərbaycan həqiqətlərini öz doğma dillərində həmvətənlərinə çatdırır, onları sovet rejimi ilə gizli mübarizəyə ruhlandırırdılar”*. Professor Qulu Məhərrəmlinin bu qeydləri həm də ona görə dəyərlidir ki, bir çoxlarının hələ də cəsarət edib tozunu silməyə cəhd etmədiyi həqiqətlər haqqındadır.

Bir daha professorun həqiqət haqqında maraqlı pritçalarla ərsəyə gəlmiş yazısının əvvəlinə qayıdıram və həm də bunu elə mövzunun yekunu hesab edirəm: *“Kim nə deyir-desin, həqiqətin qiyməti getdikcə artır, çünki onu demək çətinləşir. Həm də həqiqəti söyləyənlərin sayı azalır. Sayı azalan bir şey isə həmişə qiymətli olur. İndi Azərbaycan cəmiyyətində həqiqət belə bir bahalı mənəvi-sosial sərvətə çevrilib. Yox, söhbət çayxana və kuluarlarda danışılan həqiqətlərdən getmir, onun ictimai miqyasda söylənməsindən, mətbuatın, televiziya və radionun həqiqətə nə dərəcədə sadiq qalmasından gedir”*. Müəyyən mənada həqiqətlər həm də faktların daha canlı görünən tərəfidir. Hətta ziyanımıza olsa belə biz gərək faktları inkar edə bilmədiyimiz kimi həqiqətlərdən də yan keçməyək.

*“Cümhuriyyətin banisi”* (08.02.2014) məqaləsinə ikinci başlıq verib; *“Məhəmməd Əmin Rəsulzadənin yubileyinə sözardı”*. Zənnimcə, bunun özü də müəyyən fikir deyir. Hətta Rəsulzadə mövzusunda yazanda Tadeuş Svyatoxovskinin məşhur fikrini də təkrarlamaqdan çəkinmir: *“Corc Vaşinqton amerikalılar üçün kimdirsə, Məhəmməd Əmin Rəsulzadə də azərbaycanlılar üçün həmin şəxsdir”*. Professor əvvəlki yazılarında Rəsulzadə haqqında epiqraf üçün seçdiyi bu kəlamı işlədib, təkrara biz də rəva gördük. Necə deyərlər, təkrar biliyin anasıdır.

Qulu Məhərrəmli üçün Azərbaycan istiqlalının təminatçıları ehtiramlı münasibət ocağıdır. Hətta Azərbaycan istiqlalının görkəmli simaları haqqında təkrar-təkrar danışmaqdan, onların bu gün də mənəvi zənginlik gətirən obrazlarına dəfələrlə müraciət etməkdən çəkinmir. Çünki ədəbiyyatın klassikləri nə qədər çox öyrənilirsə, cəmiyyət ruhən bir o qədər zənginləşdiyi kimi Azərbaycan istiqlalının təminatçıları olan görkəmli siyasi xadimlərin də həyatı daha yaxından mənimsənildikcə insanların siyasi hadisələrə münasibəti bir o qədər çox durulur. Qulu Məhərrəmlinin xüsusi sevgi ilə yanaşdığı obrazlardan biri Məhəmməd Əmin Rəsulzadənin şəxsiyyətidir. O, Rəsulzadə obrazına dəfələrlə müraciət etsə də, hər yazıda yeni duyğuları ilə özünü ifadəyə can atır. Maraqlıdır ki, professor ədəbi-siyasi portretlər cərgəsində Rəsulzadənin yerini tarixi obraz zirvələrin sırasında daha aydın görür. Bunun üçün həmin siyasi portret zirvələri çox maraqlı epitetlərlə sadalayır: *“Bu müstəqillik M.F.Axundzadə və H.B.Zərdabi ilə başlamış yeni ruzigarın, bu ruzigarın XX əsrin əvvəllərində yaratdığı milli intibahın nəticəsi, həm də yeni ictimai mühitdə kollektiv zəkanın formalaşdırdığı istiqlal düşüncəsinin məhsulu idi. Əlbəttə, bu dövr tariximiz xalqın milli-ictimai şüurunun oyanmasında misilsiz xidmətlər göstərmiş parlaq simalarla zəngindir. Bu prosesdə Sabirin şeirləri də, Mirzə Cəlil, Ü.Hacıbəyli və Ə.Ağaoğlunun publisistikası da, Ə.-Hüseynzadənin fəlsəfi baxışları da, F.Köçərlinin, A.Səhhətin ədəbi düşüncələri də, N.Yusifbəyli, N.Nərimanov, F.Xoyski, Ə.Topçubaşov və başqalarının siyasi fəaliyyəti də, H.Z.Tağıyev xeyriyyəçilik missiyası da misilsiz rol oynayıb. Lakin bütün bunlarla yanaşı, Azərbaycanın müstəqilliyi ideyasının formalaşması və ən əsası bu ideyanın gerçəkləşdirilməsində aparıcı rol məhz M.Ə.Rəsulzadəyə məxsusdur”*. Əlavə nəsə deməyə lüzum qalmır. Təkcə elə təqdim olunan qeydlər bəs edir ki, Qulu Məhərrəmlinin mənəvi sərvətlər xəzinəmizə həm sonsuz sevgisini, həm də dərindən bələdliyini təsdiq edək.

Professor Cümhuriyyətin banisi haqqında düşüncələrini belə bir aforizmsayağı qeydi ilə yekunlaşdırır: *“M.Ə.Rəsulzadə özünü və dünyanı dərk edən hər bir azərbaycanlının qəlbində, könlündə məskən salmış əbədi mənəvi heykəldir...”*. Ən uzunömürlü və yaşarı heykəl, müəllifin qeyd etdiyi kimi, sevgilərlə süslənmiş heykəldir. Əslində, professor ölməzləri, insanların qəlbində əbədiyaşarlıq alan sevgiləri tərənnüm edir.

*11.10.2021*